**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BƏHLUL BEHCƏT: HƏYATI VƏ YARADICILIĞI

Ixtisas: 5716.01- Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

**İddiaçı: Hicran Tahir qızı Babayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı –2023**

**Dissertasiya işi Bakı Avrasiya Universitetinin "Ümumi filologiya" kafedrasında yerinə yetirilmişdir.**

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Cəlal Əbil oğlu Qasımov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Tahirə Qəşəm qızı Məmmədova**

filologiya elmləri doktoru, professor
**Leyla Məcid qızı İmaməliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dossent
**Aytən Abuzər qızı Hacıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.**

XX əsr Azərbaycan ədəbi-mədəni düşüncəsinin yetişdirdiyi şəxsiyyətlər sırasında Bəhlul Behcət (Bəhlul Mustafa oğlu Əfəndiyev) zəngin yaradıcılığı, milli mövqeyi və vətənpərvər təəssübkeşliyi ilə xüsusi yer tutur. Milli humanitar-filoloji fikrin formalaşmasında yaxından iştirak etmiş ədibin yaradıcılığı bu baxımdan müxtəlif aspektlərdə təhlillər aparılmasını aktuallaşdırır. XX əsrin əvvəllərində ədəbi-mədəni sferanın yaddaşında ictimai-siyasi ziddiyyətləri, siyasi dəyişiklikləri, milli-ideoloji mübarizə və mücadilə ilə qalmış dönəmdə fəaliyyət göstərmiş Bəhlul Behcətin yaradıcılığının mühit və şəxsiyyət konsepsiyası müstəvisində araşdırılması elmi əhəmiyyəti ilə səciyyələnir

XIX əsrin sonu XX əsrin əvvəlləri bu kontekstdə kifayət qədər zənginliklə özünü büruzə verir. Bir növ milli oyanışın yeni dalğası olaraq özünü göstərir. M.F.Axundovdan başlayan bu hərəkat S.Ə.Şirvani, H.Zərdabi, M.Şahtaxtlı, S.M.Qənizadə, S.Mümtaz, Y.V.Çəmənzəminli, S.S.Axundov, R.Əfəndiyev, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, M.Ə.Sabir, H.Zeynallı, V.Xuluflu, S.Hüseyn, Ə.Abid, M.Ə.Rəsulzadə, İ.Hikmət, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ö.F.Nemanzadə və başqalarının simasında özünün ən parlaq mərhələsinə daxil olur. Bəhlul Behcət də bütün ruhu, yaradıcılığı ilə ədəbi-mədəni prosesə bağlı olub ona öz töhfələrini vermiş şəxsiyyətlərdəndir. Məhz bu səbəbdən də görkəmli ədibin həyat və yaradıcılığı istiqamətində araşdırma və təhlillərin aparılması olduqca aktual bir məsələdir.

B.Behcətin ədəbi-mədəni irsinin və ideoloji fəaliyyətinin öyrənilməsini dövr baxımından bir neçə istiqamətdə təhlilə gətirilir. Birincisi, keçən əsrin 50-ci illərin ortalarına qədərki dövrdür ki, burada repressiyanın yaratdığı təsəvvür və siyasi-ideoloji sistemin müəyyənləşdirdiyi konsepsiya əsas götürülürdü. İkincisi, sovet siyasi rejimində yumşalma dövrüdür və burada bəraətlərin verilməsi və bu müstəvidə B.Behcət və digərlərinə olan münasibət kontekstində

təhlillərin aparılmasıdır. Üçüncüsü, 90-cı illərdən sonrakı mərhələdir ki, bütün məsələlərə sırf reallıq və baş verənlər səviyyəsində münasibətdir. Burada əsas xətt millilik və ədəbiyyat, insan şəxsiyyəti, imperiyanın türk və müsəlman azlıqlara münasibəti timsalında fundamental təhlilidir. Uzun illər mövcud olan siyasi rejimin xofu və basqısı altında qalan ədəbiyyatımız, ədəbiyyat tarixinin tədqiqi tədqiqatçı alimlərin diqqətindən kənarda qalmış və ya sosializm realizminin tələblərinə uyğun şəkildə işlənmişdir. Deyilən səbəblərdən Bəhlul Behcət adı da müəyyən dərəcədə yadlaşmış, kölgədə qalmışdır. Lakin siyasi quruluşun dəyişməsi, milli müstəqil dövlətçiliyimizin bərpası bu istiqamətdə aparılan araşdırmaların artmasına səbəb oldu. Müstəqillik əldə etdikdən sonra bir çox məsələlər kimi repressiyaya məruz qalmış şəxsiyyətlərin də həyat yolunun yenidən öyrənilməsi və tədqiqi günün aktual məsələlərinə çevrildi.

Bu mənada B.Behcətin şəxsiyyəti, dünyagörüşü, ədəbi-estetik təsəvvürünün təhlil obyektinə çevrilməsi olduqca vacib məsələlərdən idi. B.Behcətin ensiklopedik zəka sahibi kimi araşdırmaya cəlb edilməsinə XX əsrin sonlarından başlandı. Məlum səbəblər üzündən onun çoxşaxəli yaradıcılığının çox az bir qismi –“Nəbati”(1935), “Təşrih və mühakimə”(1924), “İslam tarixindən qeydlər”, “Qaçaq Nəbinin tarixi”, “Sarı Aşığın bayatıları” əsərləri əlyazma şəklində və bir sıra məqalələri günümüzədək gəlib çatmışdır. Ədibin siyasi, dini fəaliyyəti, elmi-publisistik irsi, folklorşünaslıq görüşləri P.Əfəndiyev, İ.Abbaslı [44], C.Qasımov [91; 92; 93], R.Xəlilov[47], B.Əhmədov, N.Şəmsizadə [136], H.Əfəndiyev [54], M.Mükərrəmoğlu [104; 105; 106] M.Qasımlı [91], M.Allahmanlı [5; 6;7], E.Qoca [97], E.Şahmar [135], H.Nərimanoğlu [119; 120], A.Qaradərəli [87;88] və digər tədqiqatçılar tərəfindən öyrənilmiş, müxtəlif səviyyələrdə təhlillər aparmışdır. Lakin bu yazıların əhəmiyyətini və ədəbi dəyərini kiçiltmədən qeyd etmək lazımdır ki, Bəhlul Behcət şəxsiyyətini, onun yaradıcılığını müxtəlif prizmalardan işıqlandıran bu yazılar məqalə, xatirə, portret oçerk xarakteri daşıyır. S.Eloğlu [53], T.Bədəlova[49], O.Qüdrətov [99], N.Heydərov [68] öz əsərlərində Bəhlul Behcətin

bədii obrazını yaratmaqla onu oxucuya təqdim etmişlər. B.Behcətin şəxsiyyəti, dünyagörüşü, ədəbi-estetik təsəvvürünün ümumi mahiyyətində olanlar bir istiqamət olaraq təhlil obyektinə çevrilir. B.Behcətin ensiklopedik zəka sahibi kimi ədəbiyyatşünaslıq fəaliyyətinin və həyat yolu timsalındakı gördüyü gərəkli işlərin dinamikası sistemli monoqrafik ararşdırmaları zəruri edir. Bütün deyilənlər və ədibin əsərlərinin verdiyi informasiya timsalında dövrə, mühitə aydınlıq gətirmək və B.Behcətin bədii-estetik, ədəbi-mədəni dünyagörüşünün mahiyyətini aydınlaşdırmaq zərurət olaraq qarşıda durur.

**Tədqiqatın obyekt və predmeti.** Bəhlul Behcətin bir çox oxucu kütləsinə hələ də qaranlıq qalan təcümeyi halı və çoxşaxəli yaradıcılığı, ədəbi nəzəri düşüncələri tədqiqat işinin obyekti hesab olunur. Bundan başqa ədibin dini görüşləri və bu mövzuda yazdığı amma hələ də işıq üzü görməyən əsərləri də araşdırmanın əsas obyektini təşkil edir.

Tədqiqat işinin predmeti Bəhlul Behcət şəxsiyyətini, ədəbi-mədəni mühitini və yaradıcılığını işıqlandıran bütün məqalələr, müxtəlif ədəbi tənqidçilərin, ədiblərin, yazıçı və jurnalistlərin mübariz folklorşünas haqqında irəli sürdüyü dəyərli fikir və mülahizələrdir. Habelə Behcətin faciəvi taleyini və bolşevik rejiminə qarşı mübarizəsinin məram və məqsədini işıqlandıran istintaq protokolları, arxiv sənədləri də bu tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsədi.** XIX əsrin sonu XX əsrin əvvəllərinin ən parlaq simalarından olan B.Behcət (Bəhlul Mustafa oğlu Əfəndiyevin) mühit və şəxsiyyət müstəvisində sistemli təhlilə gətirilməli, onun elmi yaradıcılığı bütün parametrləri ilə araşdırılmalı və Azərbaycan ədəbiyyatşünaslığının inkişafındakı rolu müəyyənləşdirilməlidir. Bütün bunlar isə aşağıdakı vəzifələrin yerinə yetirilməsi zərurətini yaradır:

**Tədqiqatın vəzifələri. 1**. B.Əfəndiyevin həyatı və yaradıcılığı ilə bağlı materialları öyrənmək və dövrünün fonunda tədqiq etmək.

**2.** Alimin bugün də mübahisəli qalan doğum tarixini, həyatını arxiv materialları, istintaq qovluğundakı ifadələri, eləcə də nəşr edilən məqalələr əsasında dəqiqləşdirmək.

**3.** B.Behcətin doğulub boya-başa çatdığı regionun və tərbiyə aldığı ailə mühitinin, eləcədə məktəbin gələcək mübariz insanın xarakterinin formalaşmasındakı rolunu aşkara çıxarmaq.

**4**. Onun sovet ideoloji sisteminə qarşı mübarizəsini, repressiyaya məruz qalma səbəblərini müəyyənləşdirmək. Siyasi fəaliyyəti ilə elmi fəaliyyəti arasındakı vəhdəti, şəxsiyyətin xarakter bütövlüyünü üzə çıxarmaq.

**5**. Azərbaycanda gedən ictimai-siyasi hadisələrə düzgün qiymət vermək, ədəbi-mədəni mühitdə alimin yerini və rolunu öyrənmək, o dövrün ədəbiyyatşünaslıq mənzərəsini düzgün təhlil etmək. Bütün bunların fonunda Bəhlul Behcətin ədəbiyyat, folklor və dini dəyərlərimizlə bağlı görüşlərini tədqiqatımızın predmetinə çevirmək.

**6**. Onun İslam dininin təbliği sahəsindəki fəaliyyətini müstəqilliyimizin bizə verdiyi fürsətdən yararlanaraq obyektiv şəkildə tədqiq etmək.

**7**. Bəhlul Behcətin indiyədək tədqiqatdan kənarda qalmış əsərlərini təhlil etmək və elmi dövriyyəyə buraxmaq.

**8**. İstər sovetlər dönəmində, istərsə də müstəqillik illərində ayrı-ayrı yazıçıların Bəhlul Behcətə münasibətini araşdırmaq.

**Tədqiqatın metodları**. Dissertasiya müasir ədəbi-nəzəri fikrin müəyyənləşdirdiyi prinsiplər əsasında işlənmişdir. Burada problemin zərurət olaraq ortaya qoyduğu tarixi müqayisəli metod əsas götürülmüşdür. Araşdırmada nəzəri tipoloji metodun ümumi prinsiplərinə də yeri gəldikcə istinad edilmişdir. Tədqiqat mövzusunun işlənilməsi zamanı bioqrafik metodoloji meyar da gözlənilmiş, ədibin həyat və yaradıcılığı barədə monoqrafik təsvirin yaradılmasında ümumi prinsip kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** XIX əsrin sonu və XX əsrin əvvəlləri baş verən oyanış, ziyalı mühitin yetişməsi, etnomilli

dəyərlərimizin öz kökü üzərində irəliləməsində Bəhlul Behcətin elmi, mədəni və publisistik fəaliyyətinin xüsusi rolu var.

- İdeoloji sistemlərin birinin digərini əvəzlədiyi mürəkkəb zaman və mühitdə (çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovet dövrü) yaşamış olan Bəhlul Behcətin fəaliyyəti milli müstəqilliyimizin qorunmasına və xalqımızda milli özünüdərk ruhunun formalaşmasına köklənmişdir.
- Siyasi mühitin formalaşdırdığı şəxsiyyət konsepsiyası, ədəbi mədəni cərəyanın mənzərəsi fonunda B.Behcətin şəxsi fəaliyyəti barədə mübahisəli fikirlər, mənbələrdə mövcud olan müxtəlifliklər (hətta bəzən biri-birini təkzib edən məlumatlar) elmi təhlil əsasında müəyyənləşdirildikdə yeni məzmun qazanır, maraqlı və əhəmiyyətli faktların ortaya çıxmasına səbəb olur.
- Folklorşünas, din alimi və tarixçi kimi B.Behcət Nəbati, Sarı Aşıq, Qaçaq Nəbi və s. kimi şəxsiyyətlərin həyatı və fəaliyyətini milli özünüdərk mövqeyindən araşdıraraq gələcək tədqiqatlar üçün bünövrə rolunu oynayır.
- Müstəqillik illərinə qədər məlum olmayan təhlükəsizlik orqanlarının və digər qurumların arxivlərində saxlanılan istintaq materialları, eləcə də müəllifin əlyazma və qeyri-mətbu əsərləri üzə çıxarılaraq təhlili sübut edir ki, Behcət repressiya illərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərini öz şəxsi həyatından daha yüksək tutur.
- Behcət klassik şərq və Azərbaycan ədəbiyyatına heç kəsi təkrar etmədən öz yaradıcılıq üsulu ilə yanaşmış və bu istiqamətdə müəyyən elmi-ədəbi və mədəni irs qoyub getmişdir
- Behcət öz yaradıcılığında dini dəyərlərə də yer vermiş, Məhəmməd Peyğəmbərin(s.a.a) həyatına dair "Al-i Məhəmmədin tarixi", "İslam tarixindən qeydlər" əsərlərindən alimin İslam tarixinin mükəmməl bilicisi olduğu aydın görünür.
- B.Behcət Azərbaycan ədəbiyyatşünaslığı ilə yanaşı bədii ədəbiyyatının da yaddaşında xüsusi yer tutmuş, onun həyat və

yaradıcılığının həm sovet dövrü, həm də müstəqillik illərində bədii ədəbiyyatda obrazlaşmasının əsasları vardır.

**Tədqiqatın elmi yeniliyi**. B.Behcətin ədəbi irsinin dövrü, mühiti və həyatı müstəvisində tədqiq olunması ciddi elmi yeniliklərlə nəticələnir ki, bunlar aşağıdakılardan ibarətdir.

- XIX əsrin sonu və XX əsrin əvvəllərində ədəbi-mədəni mühitin xüsusi mərhələ olaraq səciyyələnməsinin mahiyyəti aşkarlanmışdır;
- B.Behcətin həyat və yaradıcılığı kontekstində sistemli təhlillər apararaq onun dövrü, mühiti və yaradıcılığı haqqında elmi-nəzəri məlumat verilmiş, maarifçi-realistlərin, romantiklərin, sosial-demokratların mücadiləsinin məram və məqsədi timsalında özünü göstərən problemlərin genetik sistemi aydınlaşmışdır;
- Mövcud ədəbi-mədəni prosesin bir hərəkat olaraq Bəhlul Behcət timsalında formulası müəyyənləşmişdir;
- siyasi-ideoloji sistemlərin dəyişməsində və münasibətində ədəbiyyatın funksional rolu bir tərəf olaraq mühit və şəxsiyyət müstəvisində təhlilə gətirilmişdir;
- B.Behcətin yaradıcı şəxsiyyət kimi ədəbiyyatşünaslıq fəaliyyətinin məzmunu açıqlanmışdır;
- Ədibin ayrı-ayrı əsərləri timsalında aparılan təhlillərdə etnomilli təfəkkür intelleksiyası haqqında dolğun təsəvvür formalaşdırılmışdır;
- xalqın milli-mənəvi mədəniyyətinin toplanması, nəşri, tədqiqi sahəsində gördüyü gərəkli işlərin mahiyyətinə aydınlıq gətirilmişdir;
- B.Behçətin ədəbi-estetik dünyagörüşünün millilik konsepsiyası bir bütöv olaraq aşkarlanmışdır;
- Burada bir sıra elmi faktların, mülahizələrin yeni aspektdən araşdırılmasına səy göstərilmiş, yeri gəldikdə onlara tənqidi münasibət də bildirilmişdir.

Tədqiqatda B.Behcətin həyatı, elmi və siyasi fəaliyyətinə həsr edilmiş dəyərli tədqiqat əsərləri, məqalə və oçerklər ilk dəfə

bütünlükdə nəzərdən keçirilmiş, sistemli şəkildə öyrənilmiş, tədqiq və təhlillərdə onlara istinad edilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti**. B.Behcətin yaşayıb-yaratdığı dövr bütün parametrlərdə sistemli yanaşmaları gərəkli edir. Ona görə də B.Behcət və bu sıradan olan şəxsiyyətlərin bir bütöv olaraq millilik konsepsiyasında araşdırılması elmi baxımdan mühüm əhəmiyyət kəsb edir, dövrün ictimai-siyasi, ədəbi-mədəni, tarixi-estetik mənzərəsi haqqında dolğun təsəvvür formalaşdırır. Tədqiqatın praktik əhəmiyyəti onun ali məktəblərin filologiya fakültələrində əlavə dərs vəsaiti, xüsusi kurs olma imkanları ilə müəyyənləşir. Doktorantlar, ədəbiyyatşünaslar, B.Behcət yaradıcılığına maraq göstərənlər, XIX əsrin sonu və XX əsrin əvvəllərini araşdıranlar bu dissertasiya işindən əsaslı mənbə kimi yararlana bilərlər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi**. Dissertasiyanın ümumi məzmunu və əldə olunan nəticələr doktorantın ayrı-ayrı məqalələrində, respublika və beynəlxalq səviyyəli konfrans və simpozium məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı.**

Mövzu 31 yanvar 2014-cü ildə Bakı Avrasiya Universitetinin Elmi Şurasında qeydə alınmış və 22 may 2014-cü ildə Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasında təsdiq edilmişdir. Tədqiqat işi Bakı Avrasiya Universitetinin Ümumi filologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (14411), I fəsil(76028 işarə), II fəsil (97438 işarə), III fəsil (55420 işarə) nəticə (3366 işarə) olmaqla ümumilikdə 246663 işarədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri göstərilir, nəzəri-metodoloji əsası, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və quruluşu barədə məlumat verilir.

Dissertasiyanın I fəsli **"Bəhlul Behcətin həyatı və mühiti"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. "**Bəhlul Behcətin ailə mühiti, uşaqlıq və təhsil illəri"** adlı birinci paraqrafda Bəhlul Mustafa oğlu Behcətin yaşadığı dövrün və ictimai-siyasi mühitin xülasəsi verilib. Bəhlul Əfəndinin uşaqlıq və təhsil illəri o dövrün fonunda tədqiqata cəlb olunub. Dövrün və mühitin B. Behcətin bir şəxsiyyət kimi formalaşmasına təsiri və onun bu mühitə nə kimi təsiri olduğu işıqlandırılır. Tədqiqatda göstərilir ki, elmi-nəzəri dünyagörüşü, ictimai-siyasi mövqeyi, zəngin yaradıcı şəxsiyyəti ilə sistemli təhlilləri zəruri edən simalardan biri olan Bəhlul Behcətin Azərbaycanın ictimai-siyasi, tarixi-mədəni həyatında oynadığı rol bütün dövrlər üçün örnək hesab ediləcək hadisədir. Dünyagörüşün, gələcək həyat fəaliyyətinin formalaşmasında tarixi-ictimai dövrün tərbiyə və təhsil aldığı ailə mühitinin funksional rolu diqqət önünə gətirilir. Bəhlul Behcətin həyat və fəaliyyətinin geniş aspektdə təhlilində də bu iki tərəf (ailə mühiti və ictimai-siyasi mühit) əsas götürülür.

B.Behcətin mühiti, həyatı və yaradıcılığı kontekstində aparılan təhlillər də bu müstəvidə ciddi faktlarla əhatələnir. Çar Rusiyası, eləcə də bolşevik rejimi məşhur "parçala və hökm sür" prinsipinə əsaslanırdı. Bütün bunların nəticəsi olaraq Azərbaycan Bakı, Yelizavetpol, İrəvan və s. kimi quberniyalara bölünmüşdü. Bakı, Tiflis və İrəvan quberniyaları hesabına yaradılmış Yelezavetpol quberniyasının (1862) ən iri bölgələrindən biri Zəngəzur qəzası idi. Şimali Azərbaycanda o cümlədən Zəngəzurda da milli şüurun oyadılmasına yönələn istənilən addım rəsmi orqanlar tərəfindən qadağalarla qarşılanırdı. Siyasi rejimin bir etnos olaraq azərbaycanlılara münasibətində sistemin mahiyyəti ortaya çıxır. Belə

olan halda xalqın milli şüurunda dayanmış etnomədəni sistem və onun özgürlük aspektləri məsələyə fərqli münasibəti – qoruyuculuq missiyasını zərurətə çevirirdi. Bu zərurətdən doğan milli müstəqillik ideyasını yaşatmağa və həyata keçirməyə çalışan milli ruhlu ziyalılardan biri də Bəhlul Behcət idi.

O, xalqına, millətinə, dilinə, dininə qırılmaz tellərlə bağlı olan vətənpərvər bir Azərbaycan ziyalısı idi. O, nəinki Qubadlıda, həm də bütün Zəngəzurda xalqın milli özünüdərkinə, milli-mənəvi, dini-əxlaqi dəyərlərin formalaşmasına, onları qorumağa, nəsildən-nəsilə ötürməyə çalışan bir ziyalı olmuşdur. Əzablar və məhrumiyyətlərlə dolu, keşməkeşli həyat yolu keçən Bəhlul Mustafa oğlu Əfəndiyev 1868-ci ildə Zəngəzur qəzasının indiki Qubadlı rayonunun Dondarlı kəndində dünyaya gəlmişdir. Həyatı və fəaliyyətinin bütün tərəfləri ilə bağlı müfəssəl bilgilər olmadığı üçün onun geniş kontekstdə təhlilə gətirilməsi özlüyündə müəyyən çətinliklər yaradır. Çünki siyasi rejim repressiya hadisələrində təkcə fiziki cəza tədbirləri ilə məsələni həll etmirdi, burada həm də ailənin, nəslin, eləcə də həmin şəxsiyyətlərin fəaliyyətləri ilə bağlı nə vardısa hamısını məhv edirdi. Ona görə də B.Behcətin həyat və fəaliyyətinin geniş kontekstdə bioqrafiyasını bərpa etmək, onunla bağlı olanları bir araya gətirmək ən ümdə məsələlərdəndir. Ədibin anadanolma tarixi ilə bağlı fərqli fikirlərin olmasının bir sıra səbəbləri var: əsərlərinin yox edilməsi, müxtəlif dolaşıqlıqların özünü göstərməsi, mənbələrin qorunub saxlanmaması, uzun illər arxivlərin açılmaması və s..

Bəhlul Behcətin həyatını, tərcümeyi-halını işıqlandıran ən mötəbər mənbə heç şübhəsiz ki, arxiv sənədləri, istintaq protokollarıdır. Bu sənədlərdən məlum olur ki, milliyətcə azərbaycan türkü olan Bəhlul əfəndinin doğum yeri kimi Zəngəzurun Dondarlı kəndi göstərilir[1]. Şəhabuddin Hüseyni Nəcəfi əl-Məraşi Bəhlul əfəndinin soy kökü haqqında bunları yazır: *“Qazı Sinanın oğlu, "Buğyetu'l-Fakih" kitabının müəllifi Qazı Məhəmmədin oğlu, Muhlis deyə məşhur olan Qazı Məhəmmədin oğlu, səadət deyə tanınan Qazı*

[1] Bəhlul Behcətin istintaq qovluğu // DTX-nin arxivi, PR-№ 30693.

*Məhəmmədin oğlu, Bəhlul Behcət Əfəndi deyə məşhur olan Qazı Məhəmmədin soyu, özünün dediyinə görə, məşhur sahabə Əbu Əyyub-i Ənsariyə çatır. Yazar Zəngəzur əhalisindəndir*"[2].

Görkəmli ictimai xadim, ədəbiyyatşünas B.Behcətin ömür yolu və yaradıcılığı ilə bağlı mübahisəli məsələlərdən birisi onun anadan olması tarixi ilə bağlı yürüdülən fikir və mülahizələrdir. Mövcud mübahisə və fikir ayrılıqlarının dəqiqləşməsi çağdaş ədəbi-nəzəri fikrin qarşısında duran məsələlərdəndir. Bir sıra tədqiqatçılar onun 1885-ci ildə, bəziləri 1868-ci ildə, digərləri isə 1869-cu ildə doğulduğunu iddia edirlər. Bəhlul Behcətin həyatı və fəaliyyəti haqqında yazan bir sıra müəlliflər – professor N.Şəmsizadə, Bəhlul əfəndinin nəvəsi H.Əfəndyev[3], H.Nərimanoğlu[4], B.Əhmədov[5], F.Paşayev[6], E.Şahmar[7], M.Ağayeva və başqaları alimin 1885-ci ildə doğulduğu qənaətindədirlər. Lakin bu tarixin doğruluğunu təsdiqləyən əldə elə də əsaslı dəlil yoxdur. Fikrimizcə, Behcətin doğum tarixini göstərən rəqəmlər içərisində ən doğru olanı onun özünün dediyi tarixdir. Arxiv sənədlərindən birində - müttəhimin anket vərəqində oxuyuruq: "*Əfəndiyev Bəhlul əfəndi Mustafa oğlu 1868-ci il Qubadlı rayonunun Dondarlı kəndində anadan olub. Poçt küçəsi 111 ünvanında yaşayır. Azərnəşrdə korrektor vəzifəsində çalışır*"[8]. Bəhlul Behcəti tədqiq edən, onun həyatı, fəaliyyəti və yaradıcılığını daha dərindən araşdıran professor C.Qasımov da arxiv sənədlərinə istinad edərək Bəhlul Əfəndiyevin 1868-ci ildə təvəllüd

---

[2] Behcet, B. Muhammedoğulları tarihində teşrih ve mühakime, -İstanbul: Kevser, 2003.

[3] Əfəndiyev, H.M. Bəhlul Əfəndi Behcət: Xanlıq üsyanı / H.Əfəndiyev. -Sumqayıt: Bilik, -2013. -164s.

[4] Yenə orada

[5] Yenə orada

[6] Yenə orada

[7] Şahmar, E. Kövrək məhəbbətim Qubadlı / E.Şahmar. -Bakı: Bayatı, -1994, səh.47

[8] Bəhlul Behcətin istintaq qovluğu // DTX-nin arxivi, PR-№ 30693.

etdiyi qənaətinə gəlir[9]. Azad Qaradərəli "Zəngəzur qazisi Bəhlul Behcət" adlı kitabda bu fikri təsdiqləyir[10].

Arxiv sənədlərində mərhumun doğum tarixi 1868-ci il kimi göstərilirsə, yəqin ki, bu tarix müttəhimin şəxsiyyətini təsdiq edən sənədə əsasən yazılmışdır. Bundan başqa Bəhlul əfəndi özü də həmin tarixin doğruluğunu öz imzası ilə təsdiqləmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, Bəhlul Mustafa oğlu Əfəndiyev 1885-ci ildə yox, 1868-ci ildə dünyaya gəlmişdir. Atası Mustafa Əfəndi dövrünün nüfuzlu din xadimi hesab olunurdu. Mənbələrin verdiyi məlumata görə o, ilk təhsilini atası Mustafa əfəndidən almışdır. Məhz bunların nəticəsi idi ki, uşaq yaşlarından dini və dini elmləri lazımi qədər yüksək səviyyədə mənimsəyə bilmişdir. Daha sonra Türkiyədə ali ruhani təhsili alması onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdı. Orada dövrün nüfuzlu alimləri ilə görüşən Bəhlul əfəndi dini biliklərə yiyələnməklə yanaşı, həm də dünyəvi elmləri mənimsəmək yolunu tuturdu. Türkiyənin mütərəqqi ziyalı mühiti ilə daim bağlantılarda olan Bəhlul əfəndi nəinki yaşadığı Dondarlı kəndində, hətta vətəndən kənarda da böyük nüfuz sahibi olmuşdur. Bunu alimin əsərinə ön söz yazan Şehabuddin Hüseyni Necefi əl-Maraşinin sözləri də təsdiq edir.[11]

Nəticə olaraq Bəhlul Behcətin tərcümeyi halına nəzər saldıqda onun yaşadığı mühitin onun əqidəsinə və mübariz şəxsiyət kimi formalaşmasına təsirini görmək mümkündür. Bu paraqrafda əldə olunan elmi nəticələr „Bəhlul Behcətin tərcümeyi-halına dair qeydlər"[12] adlı məqalədə öz əksini tapmışdır.

---

[9] Qasımov, C.Ə. Azərbaycan folklorşünasları 1920-1950 / C.Ə.Qasımov. -Bakı: Elm, -2015. səh.60

[10] Qaradərəli, A. Zəngəzur qazisi Bəhlul Behcət / A.Qaradərəli. -Bakı: Şirvannəşr, -2009. səh.14

[11] Behcet, B. Muhammedoğulları tarihində teşrih ve mühakime, İstanbul: Kevser, 2003.

[12] Babayeva, H.T. Bəhlul Behcətin tərcümeyi-halına dair qeydlər // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: 2019, №4, s.115-118.

**“Bəhlul Behcətin sovet ideoloji sisteminə qarşı mübarizəsi və həyatının son illəri”** adlı ikinci paraqraf B.Behcətin sovet ideoloji sisteminə münasibətinin öyrənilməsidən bəhs edir. Hesab edirik ki, bu məsələnin siyasi, sosialoji, tarixi və elmi-nəzəri müstəvidə təhlilə gətirilməsi ciddi problem olaraq aktuallıq kəsb edir. Çünki sovetləşmə və sovet ideoloji sistemi ilə bağlı yetmiş illik zaman kəsiyində reallıqla deyilənlər arasında kəskin fərqliliklər, fikir ayrılıqları ortaya çıxır. Uydurulan miflər, təhrif olunan həqiqətlər ideoloji maşının məqsəd və məramını ört-basdır etməyə, baş verənlərin mahiyyəti məsələsində etnosu çaşdırmağa yönəlmişdi.

Sovetlər imperiyasının dağılması artıq bütün gizlinlərin, imperiya siyasətinin mahiyyətinin açılması üçün əsas oldu. İmperiyanın azlıqlara, o cümlədən Azərbaycana münasibətinin mahiyyəti, repressiya qurbanı olmuş Bəhlul Behcətlə bağlı qaranlıq məqamlar müxtəlif səviyyələrdə təhlil olunmaqla aydınlaşdı.

Görkəmli ədib ensiklopedik zəka sahibi B.Behcət sovet hakimiyyətinin gəlişi ilə totalitar rejiminin qəzəbinə tuş gələnlər sırasında idi. Rəsmi olaraq heç bir partiyanın üzvü olmayan, istintaq protokollarında bitərəf olaraq qeyd olunan B.Behcət öz siyasi fəaliyyəti ilə Musavat partiyasının işini dəstəkləyənlərdən olmuşdur. Məlum olduğu kimi, 1920-ci ildə XI Qızıl ordu Azərbaycanı ələ keçirdikdən sonra Müsavat partiyası öz fəaliyyətini gizli şəkildə davam etdirməyə məcbur oldu. Bakıda və qəzalarda milli müstəqilliyin bərpası uğrunda sovet işğalına qarşı əksinqilabi iş aparacaq təşkilatlar yaradılmağa başladı. Belə gizli təşkilatlardan biri də Zəngəzurda fəaliyyət göstərirdi. Təşkilat üzvləri Zəngəzurda və ətraf rayonlarda rus işğalına qarşı əksinqilabi iş apararaq öz ətrafına xeyli adam toplamışdı. Doğma vətən torpağının yadelli işğalına məruz qalmasına biganə qala bilməyən Bəhlul Behcət də belə bir qruplaşmanın tərkibində idi. Azərbaycanı müstəqil bir dövlət kimi görməyi arzulayan Bəhlul Əfəndi bu mübarizədə tək deyildi. Onun ətrafında din və əqidə yoldaşları, müəllimi və eyni zamanda

qaynatası, nüfuzlu din xadimi Hacı Qasım Çələbi, onun oğlu, Bəhlul Behcətin qaynı Əli Çələbi və başqa müridlər toplaşmışdılar. AXC hakimiyyəti dövründə Zəngəzur qəzasının qazısı olan Bəhlul Behcət bu mövqeyindən istifadə edərək "Ya qalib gəlib ağa olaq,– ya şəhid" şüarı altında Sovet hakimiyyətinə qarşı dini müharibə-Cihad elan etmişdir. "*Cihad bayrağı qaldırmaqda məqsədimiz doğma torpaqlarımızı düşmənlərdən azad etməkdir.Vətən, din, torpaq, İslam yolunda cihad etmək hər müsəlman üçün böyük şərəfdir*"[13]. Üsyanın təşkilində, onun üzvlərinin silah-sursatla təchiz olunmasında Bakıdakı gizli təşkilatla daim əlaqə saxlayırdı. DTX arxivində şahid qismində dindirilənlərin Bəhlul Əfəndinin əleyhinə verdiyi ifadələrdən də aydın olur ki, Xanlıq üsyanının baş verməsində Bəhlul Əfəndi və Əli Çələbinin xüsusi rolu olmuşdur. Üsyan yatırıldıqdan sonra Bəhlul Əfəndi və onun tərəfdarları İrana mühacirət etməli olurlar. Lakin Şura hökuməti B.Behcətin izini aramaqda davam edirdi. İrandan qayıtdıqdan sonra o, fövqəladə komissiya tərəfindən həbs olunur. "*İstintaq materiallarının verdiyi məlumatlara görə ilk dəfə 23 aprel 1924-cü ildə Azərbaycan SSR Fövqəladə Komissiyası tərəfindən həbs edilmişdir. Həbsinə səbəb antisovet təbliğat aparması, 1922-ci ildə özünün nüfuzundan istifadə edərək Türküstan qəzasının əhalisini sovet hakimiyyətinə qarşı silahlı üsyana çağırması, üsyan yatırıldıqdan sonra İrana qaçaraq oradakı əksinqilabi Azərbaycan mühacirəti və türk konsulluğu ilə əlaqə yaratması olmuşdur. Bu əməllərinə görə Azərbaycan ərazisindən çıxarılmaqla 5 il müddətinə inzibati sürgünə göndərilmişdir*"[14]. Sonradan cəza 3 il müddətinə islah əmək düşərgəsinə göndərilməklə əvəz olunmuşdur. B.Əfəndiyev həbsdən azad olduqdan sonra, AZ SSR Dövlət Siyasi idarəsinə onun yenidən antisovet qruplaşmalarla

---

[13] Əfəndiyev, H. Bəhlul Əfəndi Behcət Xanlıq üsyanı. Sumqayıt: Bilik,2013, səh 93.

[14] Qasımov, C.Ə. Azərbaycan Folklorşünaslığı və sovet totalitarizmi -Bakı: Nurlan, -2011. səh 270.

əlaqələrinin mövcudluğu məlum olmuş, qrup aşkarlandıqdan və məhv edildikdən sonra o, banda üzvləri ilə birlikdə İrana mühacirət etmək məcburiyyətində qalmışdır. Həmin materiallar əsasında B.Əfəndi 1926-cı ildə yenidən həbs olunmuşdur. Azərbaycan Dövlət Siyasi idarəsinin kollegiyasının qərarına əsasən 22 may 1928-ci ildə antisovet təbliğatı aparmaqda müqəssir bilinərək 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Cəza müddətini başa vurduqdan sonra 7 mart 1934-cü ildə Az.DSİ tərəfindən sosial təhlükəli element kimi 3 il müddətinə Qazaxıstana sürgün olunmuşdur. "B*ütün bu təqib və təzyiqlər özünün zirvə məqamına 37-də çatmış və B.Behcətin növbəti həbsi onun ölümü ilə yekunlaşmışdır*".[15] Bəhlul Əfəndi ilk dəfə 26 iyul 1937-ci ildə dindirildi. Dindirmə zamanı onu əksinqilabi millətçi təşkilatın üzvü olmaqda və ətrafına əksinqilabi ruhlu şəxslər toplamaqda, sovet hakimiyyəti əleyhinə fəaliyyət göstərən təşkilat yaratmaqda və digər məsələlərdə ittiham edirdilər. Dindirmə zamanı B. Behcət Sovet hökumətini devirmək məqsədilə əksinqilabçı-millətçilərdən ibarət qanunsuz təşkilatın üzvü olduğunu boynuna alır və əksinqilabi təşkilatın qarşısına qoyduğu məqsədləri açıqlayır. Sovet hakimiyyətinə qarşı mübarizə aparmaq, onu devirmək və Azərbaycanda SSR-dən asılı olmayan milli, müstəqil respublika yaratmaq Bəhlul mübarizəsinin əsas qayəsini təşkil edirdi. Əslində belə bir vətənpərvər, millətini, dinini sevən ziyalının doğma el-obasının yadelli işğalına məruz qalmasına, dini inancların, milli-mənəvi dəyərlərinin məhv edilməsinə biganə qalması, buna öz etirazını bildirməməsi təəccüb doğurardı.

Nəhayət, 27 yanvar 1938-ci ildə əməliyyat müvəkkili S.Məmmədov B.Behcətə istintaqın başa çatdığını elan etdi. 15 mart 1938-ci ildə NKVD üçlüyünün iclasında qərara alındı ki, 1868-ci il təvəllüdlü, bitərəf Əfəndiyev Bəhlul Əfəndi Mustafa oğlu, 69 yaş, əksinqilabi milli üsyançı hərəkətlərinə görə əmlakı müsadirə

---

[15] Qasımov, C.Ə Azərbaycan folklorşünasları 1920-1950. Bakı: Elm, 2015, səh 53

olunmaqla güllələnsin. Bu paraqrafla bağlı əldə olunan nəticələr aşağıdakı məqalədə öz əksini tapmışdır.[16]

**"Bəhlul Behcətin yaradıcılıq yolu" adlı ikinci fəsildə** onun klassik ədəbiyyatla və folklorşünaslıqla bağlı görüşləri, elmi-nəzəri düşüncələri, dini mövzuda yazdığı tədqiqat əsərləri və gəldiyi gənaətlər təhlilə cəlb olunub. İkinci fəslin birinci paraqrafı "**Bəhlul Behcət və klassik ədəbiyyat"** adlanır. Bəhlul Behcətin zəngin yaradıcılığında təhlil olunmalı problemlərdən biri də klassik ədəbiyyatla bağlı elmi-nəzəri dünyagörüşünün aydınlaşmasıdır. Tədqiqatçı alimin klassik ədəbiyyatla bağlı elmi-nəzəri düşüncələri, xüsusilə də Nəbatinin həyatı haqqında yazdığı fikirlər, əsərlərini nəşr etdirməsi sonralar yaranan yeni-yeni ədəbi mübahisələrə zəmin yaratdı. Dissertasiyada bu mövzuda söz söyləmiş qələm sahiblərinin fikirləri B.Behcətin mülahizələri ilə qarşılaşdırılır və yekun bir nəticəyə gəlinir. Qeyd edək ki, B.Behcət XIX əsrin görkəmli sənətkarlarından olan Nəbatinin həyat və yaradıcılığını sistemli tədqiq edən ilk tədqiqatçılardandır.

Bəhlul Behcətin 1935-ci ildə yazdığına görə, "Nəbati", "Xançobanı" təxəllüsü, "Məcnun" və "Məcnunşah" ləqəbi ilə tanınan Əbülqasım 1812-cil ildə Muğan səhrasında Elat bir ailədə anadan olmuşdur".[17] B.Behcət Nəbatinin "Xançoban" təxəllüsünün onun elat həyat sürüb, maldarlıqla məşğul olduğundan irələ gəldiyini yazmışdır. Bu fikrə qarşı kəskin etirazını bildirən S.Mümtaz özü də oxucuda çaşqınlıq yaradan mülahizələr irəli sürür: "*Bəhlul Behcət "Xan Çobanı" kəlməsinin nə məna ifadə etdiyini anlamamışdır və Nəbati heç bir zaman mal, davar, qoyun, keçi saxlamamışdır*".[18] Bu məqamda məsələyə münasibət bildirməyimiz yerinə düşərdi. "*Burada S.Mümtaz*

---

[16] Babayeva H.T. Şəxsiyyətin xarakter bütövlüyü . "Müasir türkologiya: dünən, bu gün, sabah" respublika elmi konfransının
materialları Bakı: 28 dekabr, 2016. Səh. 344-346

[17] Behcət, B.M. Nəbati, Bakı: Azərnəşr, 1935, səh.12

[18] Mümtaz, S. Azərbaycan Ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986. səh 417

*Nəbatinin maldarlıqla məşğul olduğunu inkar edir. Onun fikrincə, "Xan çoban" dedikdə Bəhlul Behcət Nəbatinin xanın çobanı olduğunu nəzərdə tutmuşdu. Lakin bu belə deyil. S.Mümtazın da qeyd etdiyi kimi "Xan Çobanı" Nəbatinin mənsub olduğu tayfanın adıdır.* Daha bir mübahisə mövzusu Nəbatinin təvəllüd və vəfat tarixi ilə bağlıdır ki, burada tədqiqatçı alimlər fərqli fikirlər irəli sürürlər lakin bu fikirlər öz təsdiqini tapmır. Müasir mənbələr son olaraq B.Behcətin söylədiyi tarixləri əsas götürür. Bəhlul Behcətin ən böyük xidmətlərindən biri təkcə Azərbaycanın klassik şairi S.Ə.Nəbatinin həyat və yaradıcılığını tədqiq etmək deyil, həm də bir şair kimi unudulmuşlar cərgəsindən çıxarmaq, yaddan çıxmış bioqrafiyasını, yaradıclığını yenidən işıqlandırmaq, dövrünün polemika obyektinə çevirmək olmuşdur. Məhz bunun nəticəsidir ki, B.Behcətin ədəbi mülahizələri sonrakı dövr araşdırmalar üçün əsaslı mənbə kimi nəzər-diqqəti cəlb etmiş və digər təhlillərə istiqamət vermişdir. "Seyid Əbülqasım Nəbati"də yürüdülən mülahizələr S.Mümtaz,[19] H.Araslı, M.C. Paşayev, F.Qasımzadə,[20] R.Həmzəyeva,[21] M.Osmanoğlu[22] və başqaları üçün əsaslı mənbə olmuşdur. Sonrakı dövrlərdə Nəbati şəxsiyyəti, yaradıcılığının müxtəlif aspektləri təhlil faktına, ayrı-ayrı araşdırmaların problem mövzusuna çevrilmişdir. Dövrün özünün problemləri, S.Ə.Nəbati yanaşmalarında nəzərə çarpan fərqliliklər, dünyagörüşündə olanların təzahür aspektləri və s. həmişə ədəbi-nəzəri fikrin marağında olmuşdur. Aparılan təhlillər də bir tərəf olaraq B.Behcətin mülahizələrini əsasa çevirmişdir. Bu məqalələrin, yazıların əhəmiyyətini və dəyərini kiçiltmədən

[19] Mümtaz, S. Əbülqasim Nəbati haqqında mülahizələrim // Ədəbiyyat. -1936, 20 avqustş. s.3

[20] Qasımzadə, F. Seyid Əbülqasım Nəbati // -Bakı: "Azərbaycan məktəbi" jurnalı, -1946. №1. –s.29-33.

[21] Həmzəyeva, R. Seyid Əbülqasim Nəbati / R.Həmzəyeva. - Bakı: Yazıçı, -1992. -120s.

[22] Bayramov, M. Nəbatinin lirikası: / filologiya üzrə fəlsəfə doktoru dis. – Bakı, 1995. -155s.

qeyd etmək lazımdır ki, Nəbatinin etnik mənşəyi, həyatı, yaradıcılığına dair hələ də tədqiqatçıları düşündürən, mübahisələrə səbəb olan məqamlar mövcud olmaqdadır. Bəzən Bəhlul Behcət özü də qeyri-dəqiq mülahizələr irəli sürmüşdür. Bütün bu təhlillərdən sonra B.Behcət qənaətlərini ümumiləşdirərək onu mütərəqqi azəri şairi adlandırmışdır. Onu da əlavə edək ki, ədibin bu əsəri Nəbati kimi zəngin yaradıcılığa və olduqca mürəkkəb dünyagörüşə malik bir sənətkarın həyat və yaradıcılığını tədqiq etmək üçün əsaslı mənbədir. Dissertasianın bu paraqrafında əldə olunan olunan elmi nəticələr aşağıdakı məqalələrdə əks olunmuşdur. [23]

**“Bəhlul Behcətin folklorşünaslıq görüşləri”** adlı ikinci paraqrafda B.Behcətin yaradıcılığının əsasını təşkil edən məsələlərdən birisi onun folklorşünas kimi fəaliyyəti təhlilə cəlb olunmuşdur. Behcətin araşdırmaları və tədqiqatları folklorşünaslıq müstəvisində ciddi elmi-nəzəri mülahizələrin zənginliyi ilə seçilir. Sarı Aşıq, Aşıq Mahmud, el şairləri, Qaçaq Nəbi, qaçaq hərəkatı və onun mahiyyəti ilə bağlı yürütdüyü mülahizələr tipoloji yanaşmaları gərəkli edir. Sarı Aşığın yaradıcılığı müxtəlif zaman kəsiklərində ayrı-ayrı tədqiqatçıların, folklor toplayıcılarının diqqət mərkəzində olmuş və bu gün də olmaqdadır. B.Behcətin Sarı Aşığın həyatını və yaradıcılığını araşdırmasının səbəbi bir tərəfdən folklor nümunələrinin toplanması və tədqiqinə olan marağı, digər bir tərəfdən həmin dövrdə yaşayıb yaratmış folklorşünas alim Salman Mümtazın Sarı Aşıqla bağlı qənaətlərə münasibətin aydınlaşmasından qaynaqlanmışdır. XX əsrin əvvəllərindən başlayaraq görkəmli sənətkarın yaradıcılığına maraq artan istiqamətdə getmişdir. S.Mümtaz, B.Behcət, H.Araslı, Ə.Dəmirçizadə, M.H.Təhmasib, Ə.Qarabağlı, P.Əfəndiyev, Ə.Axundov, V.Vəliyev, M.Həkimov, S.Paşayev, S.Rüstəmov,

[23] Babayeva, H.T. Bəhlul Behcət Nəbati haqqında (Mübahisələr və mülahizələr) // Azərbaycanşünaslığın aktual problemləri VI beynəlxalq elmi konfrans, Bakı:5-7 may, 2015, I hissə. s.118-121

A.Nəbiyev, M.Qasımlı və başqaları Sarı Aşıqla bağlı bir sıra fərqli mülahizələr irəli sürmüşlər. Mövcud fikir və mülahizələr içərisində B.Əfəndiyevin "Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivi"ndə saxlanılan "Bayatı şairi Aşiqin tərcümeyi-halı" adlı əsərində söylədiyi mülahizələr, apardığı təhlillər, toplama nümunələri elmi məzmun və mahiyyətinə görə fundamentallığı və orijinallığı ilə seçilir.[24] Çünki burada ədəbiyyatşünas alim aşığın şəxsiyyətinə, mənşə məsələsinə, dövrünə, yaradıcılığına, mühit səviyyəsində sənətkarın sənət statusuna son dərəcə həssaslıq göstərmişdir. B.Behcətin Sarı Aşıqla bağlı araşdırmaları ədəbi-mədəni sferada geniş müzakirələrə səbəb olmuş və bu istiqamətdə təhlillərin başlanğıcını qoymuşdur. Onu da əlavə edək ki, Sarı Aşıqla bağlı mübahisələr çoxşaxəliliyi ilə səciyyələnir. Burada təhlillər ustadın adından nəsil şəcərəsinə, doğulduğu yerə, şeirlərinin toplama və nəşr məsələlərinə qədər böyük bir sferanı əhatə edir. Bütün bunlar ustadın həyatı və mühiti haqqında olan qaranlıqları və həm də mübahisəli görünən məsələləri aydınlaşdırmaq məqsədi daşıyır.

Görkəmli folklorşünasın xalq ədəbiyyatına, aşıq yaradıcılığına olan həssaslığı təkcə Sarı Aşıqla məhdudlaşmır. B.Behcətin saz-söz sənətinin ustadlarından olan Aşıq Mahmud haqqında mülahizələri birbaşa ədibin dünyagörüşünü özündə ehtiva edir. Aşıq Mahmudun yaradıcılığını tədqiq edərkən, onun yaşadığı dövrə, ictimai-siyasi sferada baş verənlərə xüsusi həssaslıq göstərir[25].

B.Behcət "Qaçaq Nəbinin tarixi" adlı əsərində tarixi qəhrəman Qaçaq Nəbinin qaçaqçılıq fəaliyyətindən əvvəlki həyatını, dövrün ictimai-siyasi xronikasını, mühitini, mübarizəsini, qaçaq düşmə səbəblərini və s. təfsilatı ilə oxucuya çatdırır.[26] Bu əsəri "Qaçaq Nəbi" dastanının digər variantlarından fərqləndirən cəhət onun daha çox tədqiqat xarakterli olmasıdır. Bu da B.Behcətin folklorşünas

---

[24] Behcət, B.M. Sarı aşığın bayatıları / B.M.Behcət. - Bakı: Səda, -2006. - 96 s.
[25] Behcət, B.M. Aşıq Mahmud // Ədəbiyyat. -1936, 20 avqust. -s.3
[26] Behcət, B.M. Qaçaq Nəbinin tarixi (Vəsiqə və sənədlər əsasında) / B.M. Behcət. - Bakı: Çıraq, -2011. -288 s.

olmaqla yanaşı həm də bir tarixçi olduğundan xəbər verir. Dissertasiyada da məhz bu məqamlar təhlil olunur. Əsərdəki məkan və zaman qatı bütünlükdə cəmiyyəti, siyasi mühitin mahiyyətini özündə ehtiva edir. Görkəmli ədib B.Behcət bunları bir ziyalı olaraq dərk edir və prosesin gedişini, imperiya siyasətinin xalqa qarşı yönəldiyini konkret nümunələr və sənədlər əsasında təhlilə gətirir. Ruhu, düşüncəsi ilə xalqa bağlı olan ədib Qaçaq Nəbi timsalında xalq hərəkatının mahiyyətini folklorşünaslıq və tarixilik kontekstində sistemli təhlil edir. "Qaçaq Nəbinin tarixi" əsərinin təhlili"[27], "Milli sərvətlərimizin tədqiqatçısı və toplayıcısı"[28], "Sarı Aşığın bioqrafiyası Bəhlul Behcətin araşdırmalarında"[29] adlı məqalələrdə əldə olunan elmi nəticələr öz əksini tapmışdır.

**"Bəhlul Behcətin ilahiyyat elmi tarixində tutduğu yer"** adlı üçüncü paraqrafda B.Behcətin dinşünas alim kimi yaradıcılığı təhlil edilir. Ümumiyyətlə, XX əsrin I yarısında Azərbaycanın ilahiyyatçı alimləri arasında Bəhlul Behcətin xüsusi yeri vardır. İranda və Türkiyədə dini təhsil almış B.Behcətin dini mövzuda əlimizə çatan yeganə əsəri 1922-ci ildə İranda, ötən əsrin əvvəllərində isə Türkiyədə işıq üzü görən "Təşrih və mühakimə" əsəridir. Məhəmməd Peyğəmbərin və ailəsinin həyatından bəhs edən "Təşrih və mühakimə" əsəri 2014-cü ildə Həmdulla Əfəndiyev tərəfindən Azərbaycanda nəşr edilmişdir

"Təşrih və mühakimə"əsərini yazmaqla müəllif islam aləminin parçalanmasına səbəb olan, islam ümməti arasına nifaq salan ixtilafları, qarşıdurmaları, onları yaradan səbəbləri aydınlaşdırmağa çalışır. "*Bizce bu kitabımız, İslâm ümmetinin fikir ve düşünce birliği*

[27] Babayeva, H.T. Bəhlul Behcətin "Qaçaq Nəbinin tarixi" əsərinin təhlili // Bakı Avrasiya Universitetinin "Sivilizasiya" jurnalı. Bakı: 2014, №4, s.92-100

[28] Babayeva, H.T. Milli sərvətlərimizin tədqiqatçısı və toplayıcısı // "Axtarışlar" elmi toplu. Naxçıvan: 2015, Cild 4, №2, s. 21-26

[29] Babayeva, H.T. Sarı Aşığın bioqrafiyası Bəhlul Behcətin araşdırmalarında // VI Beynəlxalq Türk Dünyası araşdırmaları Simpoziumu. Bakı: 13-15 iyun, 2019, Cild 2, səh.199-204

*için yegane merkezdir".*[30] Onun «Məhəmmədin ailəsinin tarixi», eləcə də dini dəyərlərimizə dair yazdığı digər əsərləri din tariximizi öyrənmək baxımından mükəmməl bir mənbədir. Müəllifin bu istiqamətdə apardığı tədqiqatlar aydın şəkildə göstərir ki, B.Behcət adi qazilərdən olmamış, dini dəyərlərimizi fundamental şəkildə öyrənən və öyrədən, eyni zamanda müdafiə və mühafizə edən yaradıcı din xadimi olmuşdur.

Ədibin dini mövzuda əlimizə gəlib çatan "Təşrih və mühakimə" əsəri onun tarixçi, ədəbiyyatşünas, din bilicisi kimi tədqiqi və təhlilini şərtləndirir.

Görkəmli ədəbiyyatşünas, islam tarixçisi müxtəlif kontekstlərdə təhlillər aparır, tarixi faktlardan ayə və hədislərə qədər deyilənlərə həssaslıq göstərir. İslam tarixi, islam mədəniyyəti və fəlsəfəsinə (buraya şübhəsiz ədəbiyyatı da əlavə olunur) bələd olan şəxs kimi məsələnin mahiyyətin açmağa çalışaraq sistemli təhlillərə üstünlük verir. Ehlibeytin tarixini, başlarına gələn hadisələri, məruz qaldıqları haqsızlıqları haqq-ədalətin necə tapdandığını oxucuya çatdırmağa çalışmışdır. Dissertasiyanın bu paraqrafında bütün bu məsələlər öz əksini tapmışdır. Müəllifin təəssübkeşlikdən yaranan nöqsanlarını nəzərə almasaq deyə bilərik ki, şiə düşüncəsi ilə yazılan "Təşrih və mühakimə" əsəri din tarixini və orada baş verənləri öyrənmək kontekstində mükəmməl bir təsəvvür yaradır və Bəhlul Əfəndinin bir istiqamətdə düşüncə tipini dinşünaslıq aspektində ortaya qoyursa, digər istiqamətdə yaradıcı üslubunu ehtiva etmək gücü ilə maraq doğurur.

Görkəmli ədibin işıq üzü görməyən, arxivdə saxlanılan elmi əsərlərindən biri də "Azərbaycanda təriqətlər" və "İslam tarixindən qeydlər" adlı əsərləridir.[31] Bu əsərlər ilk dəfə olaraq bu dissertasiya

---

[30] Behcet, B. Muhammedoğulları tarihində teşrih ve mühakime, İstanbul: Kevser, 2003. Səh. 4

[31] Behcət, B.M. Azərbaycanda təriqətlər və İslam tarixindən qeydlər // S. Mümtaz adına Ədəbiyyat və incəsənət arxivi, Fond 161, siyahı №1, s.v.

işində təhlil obyektinə çevrilir. Bu paraqrafda əldə olunan elmi nəticələr aşağıdakı məqalədə əks olunmuşdur.[32]

**“Bəhlul Behcətin şəxsiyyəti və yaradıcılığı çağdaş Azərbaycan ədəbiyyatında”** adlı üçüncü fəslin birinci paraqrafı “**Bəhlul Behcətin elmi-ədəbi yaradıcılığı müasir təhlil işığında”** adlanır. Çağdaş ədəbi-nəzəri fikir bütün aspektləri ilə həmin dövrü, ictimai-siyasi mühiti, onun total xarakterini və ziyalı repressiyasının məzmununu təhlilə gətirmək yolunu tutur. Müxtəlif səviyyələrdə aparılan təhlillər, avtobioqrafik mənzərənin bərpası, elmi-nəzəri, tarixi-müqayisəli yanaşmalar və s. hamısı pozulmuş nizamın, haqqın bərpasına, milli mənlik şüurunun oyanışına hesablanır. Repressiya və dövrün bütünlükdə mahiyyəti ədəbi-mədəni mühitin problemi olaraq təhlilləri zəruriləşdirir. Bəhlul Behcət də bir ziyalı, ədəbiyyatşünas, tariçxi, folklorşünas, din alimi kimi bu sıradadır. Onun haqqında yazılanlar, müxtəlif problemlər üzrə aparılan təhlillər ayrıca araşdırma faktı kimi mühüm əhəmiyyət daşıyır. Ədəbi əsərlərdə, elmi-publisistik məqalələrdə, tipoloji təhlillərdə həyatı, şəxsiyyəti, yaradıcılığı, mühiti və s. haqqında sistemli yanaşmalar özünə yer alır. Ədəbiyyatşünas C.Qasımovun, M.Allahmanlının, R.Xəlilovun, İ.Abbaslının, H.Nərimanoğlu, E.Qoca, S.Fərəcov, M.Mükərrəmoğlu, M.Qasımlı və b. B.Behcət haqqında yazdıqları məqalələrdə adibin həyatı, təhsili, dini görüşləri, apardığı mübarizəsi, dini dəyərləri yaşatmaq naminə keçdiyi çətinliklər və s. təhlil faktına çevrilir. Elmi yaradıcılığı, tədqiq etdiyi məsələlər, onun folklorşünaslıq görüşləri, klassik ədəbiyyatla bağlı araşdırmaları, dini mövzuda yazdığı əsərləri, şifahi xalq yaradıcılığı nümunələrinin xüsusiyyətləri haqqında söylədikəri müasir ədəbiyyatşünaslıq və ədəbi tənqidin problem mövzularındandır. Müasir dövrümüzdə elmi-nəzəri fikir B.Behcət şəxsiyyətinə, zəngin yaradıcılığına lazımı qədər həssaslıqla

---

[32] Babayeva, H.T. Bəhlul Behcətin “təşrih və mühakimə” isimli əsərində tarixi həqiqətlərin əksi // II Uluslararası İnsan ve Toplum Bilimleri Araştırmaları Kongresi, İstanbul: 4-6 oktyabr, 2019. Səh.609-616

yanaşır, təhlilinə çalışdığı problemlərin mahiyyətini konseptual səviyyədə təhlilə gətirmək yolunu tutur. Milli şüurun formalaşdığı çağdaş mərhələdə ədəbi-mədəni mühitin ən önəmli vəzifələrindən biri və bəlkə də birincisi sovet rejiminin qurbanlarına layiq olduqları dəyəri vermək, diqqətdən kənarda qalmış elmi yaradıcılığını düzgün qiymətləndirməkdir.

**"Bəhlul Behcət obrazı bədii ədəbiyyatda"** adlı sonuncu paraqraf Bəhlul Əfəndi obrazının təhlilinə həsr olunmuşdur. Görkəmli ədəbiyyatşünas, tarixçi, din alimi B.Əfəndinin həyat və fəaliyyətinmin müxtəlif səviyyələrdə obrazlaşması sırf təbii proses olaraq özünü göstərir. Bu obrazlaşma bir istiqamətdə sovetlər dönəmi yazılanlarla xarakterizə olunursa, digər kontekstdə imperiyanın çöküşündən sonra ilə əlaqələnir və məsələyə də iki istiqamətdə baxmaq gərəyi yaranır:

a) sovetlər dönəmi ədəbiyyatda Bəhlul Əfəndinin obrazlaşması;

b) müstəqillik dövrü ədəbiyyatda Bəhlul Əfəndinin bədii düşüncəyə gətirilməsi.

Ə.Vəliyevin "Zəngəzur qartalları"[33], N.Heydərovun "Zəngəzur dağlarında"[34] Oruc Qüdrətovun "Keçilməmiş yollarla"[35] və s. əsərlərdə görkəmli ensiklopedik sima, mücahid B.Behcətə yanaşma sırf ideoloji müstəvidə olan yanaşmalardır və onun "xalq düşməni" obrazının yaradılması əsas xətt kimi götürülür. O, bu əsərlərdə panislamist, pantürkist, "vətən xaini", "sosialist ideyalarının düşməni" və s. düşüncəsində işıqlandırılır. Əli Vəliyevin sonrakı etiraflarında görkəmli ictimai xadim B.Behcətə olan münasibətin mahiyyəti bir daha aydınlaşır və bir növ xalq yazıçısı bu etirafları ilə bütün qaranlıqlara, B.Behcət və bu sıradan olanlarla bağlı

[33] Vəliyev, Ə. Zəngəzur qartalları / Ə.Vəliyev. –Bakı: Gənclik, -1970. -280s.
[34] Heydərov, N. Zəngəzur dağlarında / N.Heydərov. -Bakı: Azərnəşr, -1989. -224s.
[35] Qüdrətov, O. Keçilməmiş yollarla / O.Qüdrətov. - Bakı: Nurlan, -2008. -632s.

deyilənlərə aydınlıq gətirir. Sovetlər imperiyasının dağılması özlüyündə milli oyanışın və tarixi reallığın dərkinin yeni mərhələsidir. Çünki müsibətlərdən keçmiş xalq, faciələr yaşamış etnos baş verənlərin təhlilini aparmaqla müəyyənləşmiş qənaətini ortaya qoydu. B.Behcətə olan qarayaxmalar, bədii ədəbiyyatda bu cür obrazlaşmasının səbəb və məramı aşkarlandı. Müstəqilliyin əldə olunması ilə B.Behcətin fəaliyyətinin, həyatının tam reallığa uyğun elmi və bədii məzmununa diqqət yönəldi. *Azərbaycan ədəbiyyatında milli müstəqillik təfəkkürü altında yeni ictimai-siyasi düşüncə əsas götürüldü. Hadisələrə düzgün ictimai-siyasi qiymət verilməsinin prinsipi müəyyənləşdi. Belə əsərlədən biri Səbahəddin Eloğlunun "Zəngəzur hadisələri" (1992) povestidir. Kitabda Bəhlul Behcət Əfəndi haqqında kiçik məlumat verilir.* Azərbaycan müstəqillik qazandıqdan sonra B.Behcət yaradıcılığını milli düşüncə müstəvisində təhlilə gətirən ədiblərimizdən biri Azad Qaradərəlidir. O, "Zəngəzur qazisi" əsərində ədibin şəxsiyyətini, həyatını, mübarizəsini, siyasi və ədəbi görüşlərini tarixi faktlar və xalq yaddaşında olanlardan çıxış etməklə aydınlaşdırır.

B.Behcətin mükəmməl bədii obrazının yaradılması və onun mübarizəsinin məqsəd və məramının bütün aspektləri ilə açılması imperiyanın dağılmasından sonra baş verdi. Artıq B.Behcətin ensiklopedik zəkası, bir mücahid olaraq ictimai-siyasi fəaliyyəti, ədəbi-tarixi və bədii-estetik düşüncəsi ilə lazımı qədər öyrənilməsinə zəmin yaranmışdır. Bütün bunlar baş verənlərə və Bəhlul Behcət şəxsiyyətinə olan marağın nümunəsidir. Biz inanırıq ki, bundan sonra da alimin həyat və yaradıcılığı ilə bağlı Azərbaycanda, Türkiyədə və İranda olan bir çox yeni arxiv materialları üzə çıxacaq və tədqiqata cəlb ediləcəkdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işindən əldə olunan nəticə və qənaətlər öz əksini tapmış və ümumiləşdirilmişdir:

- Repressiya qurbanlarından olan Bəhlul Mustafa oğlu Əfəndiyev Behcətin həyatı öz dövrünün fonunda, yaşadığı mühitlə əlaqəli şəkildə öyrənilmişdir. Müəyyən olmuşdur ki, onun yaşadığı mühit, ailə, aldığı təhsil, dövrünün ictimai-siyasi hadisələri onun bir

şəxsiyyət kimi formalaşmasına böyük təsir göstərmişdi. Türkiyə və İranda aldığı ali ruhani təhsili onu bir dinşünas alim kimi, islami dəyərlərə yüksək qiymət verən bir müsəlman kimi yetişdirmişdir.
- B.Behcətin avtobioqrafiyası – doğum tarixi ilə bağlı elm aləmində gedən mübahisələrə, müxtəlif ziddiyətli fikirlərə aydınlıq gətirilmişdir. B.Behcət haqqında yazılmış məqalələr, arxiv sənədləri, şəxsi ifadələri onun doğum tarixi haqqında fikir ayrılıqlarına son qoymuşdur. Sənədlərdə də göstərildiyi kimi Bəhlul Behcət 1868-ci ildə Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuşdur.
- Sovet işğalına səssiz qalmayan Bəhlul Əfəndi Azərbaycan demokratik Respublikasının Zəngəzurdakı dayaqlarında biri, Sovet-bolşevik rejiminə qarşı mübarizənin fəal iştirakçılarından olmuşdur. 1955-ci ildə aldığı bəraət mübarizəsində nə qədər haqlı oluğunu göstərmişdir.
- Bəhlul Behcətin folklorşünaslığa dair apardığı araşdırmalar elm aləminə böyük töhvələr vermişdir. Dövrünün ziyalıları, ədəbi tənqidçiləri ilə olan elmi polemikaları Bəhlul Behcətin bir alim və bir şəxsiyyət kimi hərtərəfli dünyagörüşünə malik olduğundan xəbər verir. Onun Sarı Aşığın tərcümeyi halına dair yazdığı fikirləri nə qədər aktual bir problemin həllinə rəvac verdiyini göstərir. Onun irəli sürdüyü fikirlər tam öz təsdiqini tapmasa da gələcək araşdırmalara yol açmışdır. Folklor nümunələrinin toplanması və nəşri sahəsində gördüyü işlər – onun Sarı Aşığın kimliyinə, Aşıq Mahmud yaradıcılığına və bayatı janrına dair irəli sürdüyü mülahizələr öz orijinallığı ilə seçilir. Bu yazılar gələcək tədqiqatlar üçün qiymətli mənbə rolunu oynayır.
- Bəhlul Əfəndiyevin Seyid Əbülqasım Nəbati haqqında tədqiqatları alimlər arasında fikir ayrılıqlarına son qoymuş, onun yaradıcılığı yeni bir prizmadan tədqiq edilmişdir.
- Dastan yaradıcılığına təmamilə fərqli yöndən yanaşan Bəhlul Behcət ilk dəfə Qaçaq Nəbi dastanını yeni bir tərzdə oxucuya təqdim etmişdir. Tarixi tədqiqat işi statusu qazanan “Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər əsasında)” adlı əsər Azərbaycan tarixinin,

folklorunun, etnoqrafiyasının öyrənilməsində əvəzolunmaz bir mənbədir.
- B.Əfəndiyev "Təşrih və mühakimə dini dəyərlər təəssübkeşi olaraq Məhəmməd peyğəmbərin həyatına dair yazılan əsərlər içərisində öz sanballılığı ilə seçilir. Bu əsərlə o, bir daha müsəlmanları İslami-birliyə səsləmiş, dində məzhəb ayrılığına son qoymağa çağırmışdır. Bu əsəri İslam tarixinə dair mükəmməl bir tədqiqat əsəri hesab etmək olar.
- Hələ də işıq üzü görməyən "İslam tarixindən qeydlər", Azərbaycanda təriqətlər mövzusunda qələmə aldığı elmi əsər haqqında ilk dəfə bu dissertasiyada danışılmışdır.
- Azərbaycanın müstəqil, müsəlman dövləti kimi mövcud olması B.Behcətin ən ümdə arzusu idi və o bütün həyatı boyu bu əqidə uğrunda çalışmışdır. Müstəqillik əldə etdikdən sonra Bəhlul Mustafa oğlu Əfəndiyev də daxil olmaqla bütün repressiya qurbanlarının günahsızlığı sübuta yetirilmiş, onlar haqqında elmi-bədii əsərlər, oçerklər, monoqrafiyalar, dövrü mətbuatda məqalələr işıq üzü görmüşdür. Qədirbilən xalqımız, ədəbi ictimaiyyət böyük alimin yaradıcılığını tədqiq etmişdir.
- Dissertasiyada ilk dəfə bədii əsərlərdə Bəhlul Behcət obrazı təhlil olunmuşdur. Bu əsərlər dövr etibarilə 2 qismə bölünmüşdür. Sovetlər dönəmində yazılanlar və müstəqillik illərində yazılanlar. Bu səbəbdən də iki tip Bəhlul Behcət obrazı ilə qarşılaşdıq. Biz inanırıq ki, bundan sonra da alimin həyat və yaradıcılığı ilə bağlı Azərbaycanda, Türkiyədə və İranda olan bir çox yeni arxiv materialları üzə çıxacaq və tədqiqata cəlb ediləcəkdir.

**Dissertasiyanın əsas məzmun və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır.**

1. Bəhlul Behcətin "Qaçaq Nəbinin tarixi" əsərinin təhlili // Bakı Avrasiya Universitetinin "Sivilizasiya" jurnalı. Bakı: 2014, №4, səh.92-100
2. Milli sərvətlərimizin tədqiqatçısı və toplayıcısı // "Axtarışlar" elmi toplu. Naxçıvan: 2015, Cild 4, №2, səh. 21-26

3. Bəhlul Behcət Nəbati haqqında (Mübahisələr və mülahizələr) // Azərbaycanşünaslığın aktual problemləri VI beynəlxalq elmi konfrans, Bakı:5-7 may, 2015, I hissə. səh.118-121
4. Bəhlul Behcət və onun "təşrih və mühakimə" əsəri// "Dədə Qorqud"elmi-ədəbi toplu. Bakı: "Elm və təhsil", 2015 №3, səh. 132-139
5. Şəxsiyyətin xarakter bütövlüyü . "Müasir türkologiya: dünən, bu gün, sabah" respublika elmi konfransının materialları Bakı: 28 dekabr, 2016. Səh. 344-346
6. Bəhlul Behcət ədəbi düşüncədə. Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransı materialları, Bakı: 24-25 may 2016, cild 2. Səh.24-26
7. Bəhlul Behcətin bədii ədəbiyyatda yeri// "Filologiya məsələləri" Bakı: "Elm və təhsil", 2017 №8, səh. 327-335.
8. Религиозно-нравственные взгляды Бахлула Бехчета // Науковый віснік міжнародного гуманітарного універcитету. Ukrayna, Odessa 2017. № 29/2 səh.11-14
9. Sarı Aşıqla bağlı mübahisələr-həqiqətlər// Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı: "Elm və təhsil", 2018 №2, səh.131-136
10. Bəhlul Behcət və Azərbaycan klassik ədəbiyyatı "Filologiya məsələləri" Bakı: "Elm və təhsil", 2019 №14, səh. 374-379
11. Bəhlul Behcətin tərcümeyi-halına dair qeydlər // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: 2019, №4,
12. Sarı Aşığın bioqrafiyası Bəhlul Behcətin araşdırmalarında // VI Beynəlxalq Türk Dünyası araşdırmaları Simpoziumu. Bakı: 13-15 iyun, 2019, Cild 2, səh.199-204
13. Bəhlul Behcətin "təşrih və mühakimə" isimli əsərində tarixi həqiqətlərin əksi // II Uluslararası İnsan ve Toplum Bilimleri Araştırmaları Kongresi, İstanbul: 4-6 oktyabr, 2019. Səh.609-616
14. Bəhlul Behcətin elmi-nəzəri görüşləri və çağdaş ədəbi tənqid // "Dil və Ədəbiyyat" Bakı: 2019, cild 9, №3. S. 101-108

15. "Bəhlul Behcət və Türkiyə elmi-dini mühiti"// Osmaniye Korkut Ata Üniversitesi III Uluslararası Dil ve Edebiyat Kongresi, Konya: 6-8 oktyabr, 2021. Səh 36-39

**Dissertasiyanın müdafiəsi 24 oktyabr 2023-ci il tarixində saat 16[00] Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat 21 sentyabr 2023-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.**

Çapa imzalanıb: 14.09.2023

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcm: 42988

Tiraj: 100 nüsxə